**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**MƏRKƏZİ SEÇKİ KOMİSSİYASI**

# QƏRAR

**№ SQ-01/2025-2**

**Naxçıvan şəhəri** **23 oktyabr 2025-ci il**

## Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası Aparatının strukturu və ştat vahidlərinin təsdiq edilməsi barədə

09 iyul 2005-ci il tarixli "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununa 31 may 2024-cü il tarixli 35-VI QN nömrəli Naxçıvan Muxtar Respublikasının Qanunu ilə müvafiq dəyişikliklər edilmişdir. Edilmiş dəyişikliklərə görə "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununun 22.5-ci maddəsinə əsasən "Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası öz aparatını yaradır. Aparatın fəaliyyəti Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiq edilmiş Əsasnamə ilə tənzimlənir. Mərkəzi Seçki Komissiyası aparatının strukturunu və ştat vahidlərini muxtar respublika büdcəsindən ona ayrılmış vəsait hüdudlarında müəyyən edir. Mərkəzi Seçki Komissiyasının sədri, vəzifəsinə görə Mərkəzi Seçki Komissiyası aparatının rəhbəri hesab olunur". Qanununa edilmiş dəyişikliklərə əsasən Mərkəzi Seçki Komissiyasının aparatının ştat cədvəlinin təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 21 dekabr 2020-ci il tarixli 211 nömrəli Qərarı Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən 23 oktyabr 2025-ci il tarixli 50 nömrəli Qərarla ləğv edilmişdir. Qeyd edilənləri nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 20.4-cü, 20.13-cü, 22.5-ci, 23.3-cü və 23.4-cü maddələrinə uyğun olaraq **q ə r a r a  a l ı r:**

1. Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası Aparatının strukturu 19 ştat vahidi olmaqla yenidən təsdiq edilsin (cədvəl əlavə edilir).
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr:** **Çingiz Həsənli**

**Katib:** **Bağırov Orxan**